# *SƏNƏTŞÜNASLIQ*

## DEKORATİV-TƏTBİQİ SƏNƏT
## İNCƏSƏNƏTİN NƏZƏRİYYƏSİ, TƏHLİLİ VƏ TƏNQİDİ
## TƏSVİRİ SƏNƏT

**UOT 745/749**
**ORCID: 0009-0006-6190-9594**
**DOI: 10.52094/KOPD8254**

**Nigar Abbasova İlqar qızı**
**Azərbaycan Rəssamlıq Akademiyası**
**Doktorant**
**abbasovan036@gmail.com**

# QARABAĞIN ƏNƏNƏVİ QADIN BAŞ ÖRTÜKLƏRİ

**Xülasə:** Qarabağın ənənəvi qadın baş örtüklərinin elmi müsəvidə öyrənilməsi madii-mədəni irsimizin qloballaşmanın unifikasiya meyillərindən qorunması, xalqımızın milli genetik kodunun gələcək nəsillərə ötürülməsi baxımından xüsusi aktuallıq kəsb edir. Baş örtüklərinin öyrənilməsi tarixən Azərbaycan cəmiyyətində yer alan daxili münasibətlərin sosial və antropoloji təhlili üçün zəruridir. Bütün bunlar qlobal dəbin və müasir geyim tərzinin milli geyimləri sıxışdırıb çıxaran dövrdə tarixi keçmişimizi unutmamaq və dünyada təbliğ etmək baxımından çox aktualdır.

Məqalədə ilk dəfə olaraq XIX-XX əsrin əvvəllərində Şuşa və ətraf bölgələrdə geniş yayılmış araqçın, çutqu, kəlağayı və şal kimi geyim elementlərinin tipoloji, texnoloji və rəmzi xüsusiyyətlərini tədqiq edir. Etnoqrafik materiallara əsaslanan tədqiqat, bu örtüklərin sosial status və yaş göstəricisi kimi funksiyalarını və bədii bəzək üsullarını araşdırır.

Əvvəlki araşdırmalarda Qarabağ geyimlərinin, o cümlədən qadın baş örtüklərinin öyrənilməsi səthi xaraket daşımış, əsasən tarix və arxeologiya elmi kontekstində öyrənilmiş, onların daşıdıqları semantik məna yükü kompleks şəkildə tədqiqata cəlb edilməmişdir.

**Bu məqalənin əsas məqsədi Qarabağ bölgəsinin zəngin etnoqrafik irsini tədqiq etməklə, ənənəvi qadın baş örtüklərinin tarixi-mədəni əhəmiyyətini, bədii-estetik xüsusiyyətlərini və onların Azərbaycan geyim**

**mədəniyyətindəki xüsusi yerini işıqlandırmaqdır.** Məqsəd olaraq Qarabağ qadınlarının ənənəvi geyim formalarını (kəlağayı, araqçın, çalma və s.) sistemli şəkildə təqdim etmək, bu örtüklərin Azərbaycan xalqının estetik zövqünü və milli dəyərlərini necə əks etdirdiyini göstərmək, baş örtüklərinin sadəcə bəzək deyil, həm də qadının yaşı, ailə vəziyyəti və sosial statusu haqqında məlumat verən bir vasitə olduğunu izah etməkdir.

Tədqiqat zamanı qadın baş örtüklərinin öyrənilməsinə tətbiq edilən sistemli yanaşma, semantik təhlil və təsnifat meyarlarının işlənilməsi sənətşünaslıq elminin bu sahədə nəzəri bazasını zənginləşdirmişdir. Əldə edilən mühüm qənaətlər ali məktəblərdə incəsənətin tarixi və nəzəriyyəsi üzrə fənlərin tədrisinə tətbiq edilə bilər. Bundan başqa, alınan nəzəri nəticələr muzey fəaliyyətində milli geyim kolleksiyaların atribusiyası və kataloqlaşdırılmasında etibarlı mənbə qismində praktiki əhəmiyyətə malikdir.

**Açar sözlər:** Qarabağ, Şuşa, milli geyim, baş örtükləri, çutqu, araqçın, kəlağayı, etnoqrafiya, maddi mədəniyyət, güləbətin.

## Giriş

Qarabağın geyim mədəniyyəti özünəməxsus canlılığı və zənginliyi ilə seçilib, Azərbaycan dəbinin inkişafında mühüm rol oynayıb. Azərbaycan mədəniyyətində qadın baş örtükləri böyük rəmzi və mənəvi məna daşıyır. Hər bir region və etnik qrup özünəməxsus baş örtük ənənələrinə malikdir. Qarabağ da bu baxımdan zəngin bir mədəni irsə sahibdir.

Ənənəvi Qarabağ baş örtükləri regionun təbii mühiti, etnik xüsusiyyətləri və dini-mənəvi dəyərləri ilə sıx bağlıdır. Bunlar qadınların geyim və bəzək mədəniyyətinin ayrılmaz hissəsi kimi formalaşmışdır. Baş örtüklərin forması, materialı, rəngi, naxışları və s. özündə Qarabağın tarixi, mədəniyyəti və estetik dəyərlərini əks etdirir. Onların öyrənilməsi Azərbaycan xalq sənətkarlığının qiymətli nümunələrini üzə çıxarmağa kömək edər.

Qarabağda ənənəvi qadın baş örtükləri Azərbaycan milli geyiminə xas olan çoxqatlı struktur olub və bir neçə elementdən ibarət olub, həm zərifliyi, həm də mürəkkəb quruluşu ilə seçilirdi. Bu örtüklər sadəcə geyim deyil, həm də qadının yaşını, sosial statusunu və ailə vəziyyətini əks etdirən rəmzi məna daşıyırdı.

Azərbaycanın digər bölgələrində olduğu kimi, Qarabağda da baş geyimləri böyük mədəni-ictimai əhəmiyyətə malikdir. Onların geyilmə tərzi,

eləcə də hicablardakı rənglər və naxışlar ailə vəziyyətini, yaşı, qəbilə üzvlüyünü və ya müəyyən bir həyat hadisəsini göstərə bilər. Çoxqatlı örtük taxmaq ənənəsi xalqın estetik dəyərlərini və dünyagörüşünü əks etdirir, onların mədəni irsinin mühüm tərkib hissəsinə çevrilir.

**Bu məqalənin əsas məqsədi Qarabağ bölgəsinin zəngin etnoqrafik irsini tədqiq etməklə, ənənəvi qadın baş örtüklərinin tarixi-mədəni əhəmiyyətini, bədii-estetik xüsusiyyətlərini və onların Azərbaycan geyim mədəniyyətindəki xüsusi yerini işıqlandırmaqdır.** Məqsəd olaraq Qarabağ qadınlarının ənənəvi geyim formalarını (kəlağayı, araqçın, çalma və s.) sistemli şəkildə təqdim etmək, bu örtüklərin Azərbaycan xalqının estetik zövqünü və milli dəyərlərini necə əks etdirdiyini göstərmək, baş örtüklərinin sadəcə bəzək deyil, həm də qadının yaşı, ailə vəziyyəti və sosial statusu haqqında məlumat verən bir vasitə olduğunu izah etməkdir.

Əvvəlki araşdırmalarda Qarabağ geyimlərinin, o cümlədən qadın baş örtüklərinin öyrənilməsi səthi xaraket daşımış, əsasən tarix və arxeologiya elmi kontekstində öyrənilmiş, onların daşıdıqları semantik məna yükü kompleks şəkildə öyrənilməmişdir. Bu baxımdan tədqiqatın aparılmasında Azərbaycan folklorşünası, arxeoloq Ələsgər Ələkbərovun (Ələkbərov. Ə.,1960) və etnoqrafşünas alim Qəhrəman Qaraqaşlının (Каракашлы. К.Т., 1964) araşdırmaları bu mövzuda dəyərli elmi mənbə rolunda çıxış etmişdilər. Onların elmi əsərlərində Qarabağ qadınlarının ənənəvi geyimlərinin etnoqrafik təsviri verilmişdir. Professor Sevil Sadıxovanın "XIX əsr Azərbaycan geyimləri" monoqrafiyası metodoloji baza kimi çıxış edərək, mövzunun sənətşünaslıq elmi müstəvisində öyrənilməsi üçün əsas istinad mənbəyi olmuşdur (Sadıxova. S.Y., 2013). Son illərdə qadın baş örtüklərinin təsviri sənətdə reprezentasiyasına dair maraqlı yanaşmaya U.Kamalzadənin (Кямалзаде, У.Э., 2024) tədqiqatlarında rast gəlinir.

XIX-XX əsrin əvvəllərində Qarabağın ənənəvi qadın baş örtüklərinin öyrənilməsi zamanı sistemli yanaşma, semantik təhlil və tipoloji təsnifat metodları tətbiq edilmişdir. Sistemli yanaşma metodu vasitəsi ilə araqçın, çutqu, kəlağayı və şal kimi geyim elementləri kompleksli şəkildə təhlil edilib, onların funksional xüsusiyyətləri üzə çıxarılmışdır. Tipoloji metod vasitəsilə qadın baş örtükləri formasına, materialına və təyinatlarına görə sistemləşdirilmişdir. Semantik təhlil metodu isə bu kimi geyim nümunələrinin həm estetik, həm də informativ rolunu müəyyənləşdirməyə köməklik göstərmişdir.

**Əsas hissə**

**Geymə baş geyimləri**

Azərbaycan geyim mədəniyyətində qadın baş geyimləri çoxluq təşkil edir və geymə və bağlama olmaqla iki cür olurdu. Geymə baş geyimlərinə təsək, çutqu, araqçın, dingə, bağlama baş geyimlərinə isə müxtəlif ölçülü və adlı ləçəklər, çalmalar, kəlağayılar, şallar, örpəklər eləcə də niqab, rübənd, çadra, çarşab, duvaq aiddir.

Qarabağlı qız obrazını bir neçə əşyadan ibarət baş geyimi tamamlayırdı. Saçları muncuqlarla, daşlarla, sikkələrlə bəzədilmiş, silindrik papaq araqçın taxılan, həmçinin çox vaxt zəngin bəzədilmiş, üzərinə kəlağayı, şal və digər yaylıqlar atdıqları xüsusi torbada – çutquda gizlədilmiş, baş sarğısı olan dingə ilə bağlanırdı.

Çutqu qadınların saçlarını yığcam saxlayaraq xüsusi saç torbası kimi xidmət edirdi. Buna görə də onun ölçüsü elə idi ki, hər qadının başının dövrəsinə çata bilsin. Kəsilmiş və düzbucaqlı tikilmiş çutqunun eni 20-30 sm, uzunluğu 50-60 sm idi. Həmçinin tünd ipək parçadan tikilmiş və astarlı çutqunun hər iki ucu bəzədilmişdir. Çutqunun kənarları bəzədilsə də, başına geyilən zaman onun önünə “çutquqabağı” və ya “alınqabağı” adlanan baş bəzəyi taxılırdı.

“Dingə” və “çalma”lar geymə (qoyma) növlü qadın baş geyimlərinin mürəkkəb quruluşa malik idilər. Daha çox Naxçıvan, Şirvan və Qərb bölgələrində qadın geyim dəstinə daxil edilən dingə söyüd və ya tənək çubuqlarından hörülmüş çənbər formasında olub, onun üzərinə şal sarılırdı. Adətən dingəyə qızıl qarmaq bənd edələrdi ki, başda möhkəm dayansın, üstündən isə örpək bağlanılırdı. Bütün Cənubi Qafqaz üçün xarakterik hesab edilən bu baş geyimi bəzən zinət əşyaları ilə bəzədilirdi ki, bu da sahibin maddi vəziyyəti ilə bağlı idi. Digər bölgələrdən fərqli olaraq Şirvan bölgəsində dingə çubuqlardan yığılmırdı. Orada baş şalı dingə səbəti formasında bağlanırdı və birbaşa başda qurulurdu.

Qarabağ bölgəsinin xanımlarının baş örtüklərində Azərbaycanın digər bölgələri ilə müqayisədə elə bir fərq yoxdur. Onlar başına tərçəng qoyardı. XVIII əsrə kimi araqçın məhz tərçəng adı ilə məşhur idi. Hal-hazırda da Türkiyədə və Cənubi Azərbaycanda bu addan istifadə olunur. Tərçəng xalis türk sözüdür.

Araqçın baş geyiminin əsasını təşkil edən qabarıq formalı papaqdır. Adətən məxmər və ya tirmə parçadan tikilir, üzəri muncuqlu tikmələrlə və qızıl-gümüş bəzəklərlə bəzədilirdi.

Araqçın praktik məqsədə xidmət etsə də – təri çıxarmaq vasitəsi kimi – çox rəngli ipək və ya qızılgül sapları ilə bəzədilmişdir. Araqçını adətən qızıl və ya gümüşdən hazırlanmış "boğazaltı" qarmaq və ya "zəncir"lə başına bağlayırdılar. Sonra dekorativ sancaqlar vasitəsilə ona şərf və s.

Güləbətin naxışının geyimdə məharətlə istifadə olunmasının çox gözəl nümunəsi Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılan milli papaq – araqçındır. XIX əsrdə Şuşada hazırlanmış məxmər araqçının düzgün seçilmiş əsas dekorativ elementi gül xonçası və dərin fəlsəfi məna və obrazlı assosiasiyalarla dolu simvolik işarə olan spiral motividir. Bu ornamental motivlər həm də məmulatın əsasını təşkil edən haşiyənin rapportunda da yer almışlar. Tikmədə istifadə olunan sapların rəngi də yaxşı seçilmişdir. Soyuq gümüş sapların qara araqçın fonu ilə birləşməsi gözü yormur, cizgilərin axıcılığı və hamarlığı, frizin motiv qruplarını vurğulayan əyri dalğanın dinamik dönüşü isə əsas dekorativ yükü daşıyır (Sadıxova S.Y., 2013, 26).

Araqçın – ənənəvi Azərbaycan baş geyimi, milli geyimin mühüm tərkib hissəsi, dərin mədəni və sosial əhəmiyyətə malikdir. O, təkcə geyim parçası kimi deyil, həm də onu geyinən şəxsin sosial vəziyyətinin, yaşının və hətta ailə vəziyyətinin mühüm göstəricisi kimi xidmət edirdi. Onun görünüşü insanın mənşəyini, var-dövlətini və hətta hadisəni – istər bayram, istərsə də kədərli hadisə olduğunu göstərə bilərdi. Qırmızı araqçın, kəlağayı kimi, toy geyiminin bir hissəsi ola bilər. Bütövlükdə, araqçın Azərbaycanın zəngin mədəni irsini əks etdirir və xalq sənətkarlarının yüksək məharətini nümayiş etdirir.

Araqçın üçün ən çox məxmərdən istifadə olunurdu, baxmayaraq ki, astar həmişə saya rəngdə idi. Yuvarlaq formaya malik araqçının rəngli ipək, qızıl sap, muncuq, bəzən isə mirvari ilə tikmək mümkün olan tikmələrlə zəngin şəkildə bəzəyirdilər. Qadın və qızların araqçınlarında tikmələr xüsusilə dəbdəbəli idi, üstündə qızıl-zinət əşyaları tikmək olardı. Sənətkarlar unikal dizaynlar, müxtəlif naxışlar və çalarlar yaratmağa çalışırdılar. Buna misal olaraq Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan göy rəngli məxmərdən tikilmiş və kənarları inci daşlarından yığılmış nəbati ornamentdən ibarət araqçını göstərmək olar.

Yastı texnikaya ipək, zərli və gümüş saplardan istifadə edə bilən örtmə tikişi daxildir. Ola bilsin ki, zaman aralığı baxımından bu tikmə üsuluna, XIX əsr də daxil olmaqla, bir çox əsrlər ərzində uzun müddət ərzində müraciət edilib. Bu üsul mürəkkəb kompozisiyalar yaradarkən daha real təsvirlərə nail olmaq üçün istifadə olunurdu. Bu növ tikmə incə rəng seçimi ilə diqqəti cəlb edir. Zərif

naxışları tikən zamanı solğun, pastel rənglərdən istifadə edirdilər. Beləliklə, onlar müxtəlif növ parçaları – yun, mahud, ipək və kətan parçaları bəzəyirdilər.

Milli Azərbaycan Xalça Muzeyinin Şuşa filialında münayiş olunan araqçın nümunəsi məhz bu texnikada işlənilib. Ağ bezin üzərində qızıl sapla tikilmiş ipək örtmə tikişi günəşi simvolizə edən kənarları ziqzaq olan iki (kiçik və böyük) rombdan ibarət, ondan uzanan şüaları olan konsentrik dairə ilə təmsil olunan unikal kompozisiya yaradır. Məhsuldarlığı, həyatın xeyirxahlığını və qoruyucu funksiyaları (reproduktiv qabiliyyəti qoruyan) təmsil edən altı uzadılmış rombik şüalar arasında yerləşdirilir, tərkibi tamamlayır, dolğunluq hissi yaradır. Dairə daxilində məharətlə yazılmış araqçının mərkəzinin bütün kompozisiyasını mərkəzi sahəni vurğulayan və günəş işarəsini vurğulayan dar zolaq – halqa ilə haşiyələnmişdir. XIX əsrin sonlarına aid olan və Şuşada hazırlanmış araqçın örtmə tikişi ilə tərtib olunub və pilək tikmələri vasitəsi ilə xalça naxışı olan mollabaşı ornamenti ilə tərtib edilmişdir.

XIX əsrdə geniş yayılmış digər tikmə növü quş gözü kimi tanınan ağ və ya rəngli ipəklə işlənən cınağı idi. Bu tikmə forma və texnika baxımından piləyə bənzəyir. Bu naxışa çox vaxt güləbətin tikmələri ilə birlikdə rast gəlinir. Kiçik yuvarlaq formalarda təqdim olunan “cınagı” (və ya “cülmə”) naxışı ətəyin yaxasını, ciblərini və kənarlarını haşiyələndirsə də, araqçınların bəzədilməsində daha çox istifadə olunurdu. Bu əşyalara köçürülən bitki ornamenti həndəsi görünüş alır.

Bu tikmə növünün səciyyəvi nümunəsi Azərbaycan Milli Xalça muzeyinin kolleksiyasında saxlanılan Qarabağda hazırlanmış və XIX əsrin əvvəllərinə aid edilən araqçındır. O, tirmədən hazırlanmış və pambıq astarlıdır. Alt kənarı boyunca və diblə divarların qovşağında haşiyə var ki, burada alternativ üçbucaqlar prinsipinə uyğun olaraq (təpələri yuxarı və aşağı) və ağ saplarla “quş gözü” texnikasından istifadə etməklə mürəkkəb qızıl tikmə elementləri ilə uyğunlaşıb. Kompozisiyanın mərkəzi ondan uzanan şüalarla konsentrik dairələr şəklində təqdim olunur. Dekorun bədii tərtibatı ağ və qızılı haşiyənin parçanın özü ilə ahəngdar birləşməsi ilə diqqəti cəlb edir.

Ənənəvi olaraq, araqçın kəlağayı (ipək yaylıq) və ya çalma kimi digər, daha həcmli baş örtüklərinin altına baş örtüyü kimi geyilirdi. Uşaqlar istisna idi və onlara çöl örtüyü olmadan araqçın geyinməyə icazə verilirdi.

Dingə baş örtüyünün altından alna bağlanan, üzəri qızıl və ya gümüş pullarla bəzədilmiş lentvari bəzək.

**Bağlama tipli baş geyimləri**

Bağlama tipli baş geyimləri (örtüklər) təkbaşına geyinməklə yanaşı, tez-tez digər baş geyimlərinin üzərinə də geyilirdi. Bu tip baş geyimləri Azərbaycanın müxtəlif bölgələrində fərqli şəkildə bağlanırdı. Çalma adətən başa müxtəlif yollarla bağlanırdı. Adətən, ipək şarf üçbucaq şəklində qatlanaraq başa qoyulurdu. Sonra ucları – sağ çiyin üzərindən, sol şarf sağ üzərindən – başın arxasından çarpazlaşdırılır, irəli gətirilir və yenidən çənə altına bağlanırdı. Başqa bir üsul isə çalmanı bağlamaq, şarfın uclarını boyun altından keçirmək, bir ucu sinənin üzərindən sərbəst şəkildə asmaq, digəri isə boyun ətrafına sarınmaq və arxaya sarmaq idi. Çalmanın boş ucu çox vaxt bəzək kimi xidmət edirdi. Çalmanın başda möhkəm dayanmasını və səliqəli görünməsini təmin etmək üçün evli qadınlar adətən onu yuxarıdan sancaqla bərkidirdilər. Azərbaycanın bir sıra bölgələrində (Qarabağ, Lənkəran-Astara, Quba-Xaçmaz, Naxçıvan və s.) başın ətrafına kiçik bir şarf bağlamaq adət idi ki, onu başa bərkidin.

Azərbaycan qadınlarını bağlama (örtmə) baş geyimlərinin bir qismini də kəlağayı təşkil edirdi. Kəlağayı adlı ipək yaylıq saflıq və nəciblik simvolu hesab olunu və müxtəlif üsullarla bağlanırdı. Kəlağayı nəbati, həndəsi və digər naxışlar, o cümlədən od və həyat rəmzi olan məşhur “buta” naxışı bəzəyirdi.

Kəlağayının rəngi yaş və sosial statusu göstərirdi. Gənc qadınlar açıq və parlaq çalarlarda yaylıqlar, yaşlı qadınlar isə daha tünd rəngli baş örtüyü bağlayırdılar. Qırmızı kəlağayı gəlinin toy geyiminin bir hissəsi idi.

Azərbaycanın dörd əsas kəlağayı istehsal edən mərkəzlərindən biri də Qarabağ bölgəsi, xüsusən Şuşada olub. Burada dörd emalatxana olub və hamısında da kəlağayı istehsal edilib. Qarabağda kəlağayıya yaylıq deyərdilər. Yaylıq yağlıq deməkdir. Kəlağayı özü də “kəlləyağlığı” deməkdir. Xanımlar əvvəlcə altdan kəlağayını bağlayardılar ki, başın tərini, yağını çəksin sonra dingə, araqçın və ya çalma qoyardılar, yaxud da zər-zibalı örpəklər bağlayardılar. Xanımlar baş geyimi olan sərəndazlardan da istifadə edərdilər.

Tbilisinin Gürcüstan Milli muzeydə saxlanılan XIX əsrə aid edilən Şuşa baş örpəyi müəyyən maraq doğurur. Üçbucaq formasında olan qırmızı çitdən biçilən örpəyin mərkəzi ucu bədii tikmə vasitəsilə ənənəvi xalçalarda olduğu kimi ana və bala haşiyələrdən ibarət bir neçə sıra həndəsi naxışlı ornamental haşiyə zolaqları ilə bəzədilib, mərkəzdə isə “həyat ağacı”nı simvolizə edən altı ləçəkli gül, ondan isə yanlara ayrılaraq üçbucaq formasına uyğun yerləşdirilən eyni formalı təsvirlər verilmişdi. Həmin muzeydə nümayiş etdirilən iki ipək kəlağayı dolğun göy rəngi ilə seçilir. Saçaqlada tərtib edilən kəlağayılardan

birinin yanları açıq rəngli həndəsi naxışlı haşiyə ilə bəzədilmiş və saçaqla tamamlanmışdır.

Ümumiyyətlə, saçaq-purçum əksər baş örtüklərinin bəzək elementini təşkil edirdi. Bunu Milli Azərbaycan Tarixi Muzeyinn ekspozisiyasını bəzəyən “düşbərə örpək” kimi tanınan ipək kəlağayılar, “naz-nazı” örpək, eləcə də Milli Azərbaycan Xalça Muzeyində saxlanılan məlilə və güləbətin tikmələri ilə tərtib edilən zərxara örpəyin nümumələrində görmək olar.

Saçağın istifadəsini Gürcüstan Milli muzeyində qorunan baş geyimi çutqu – içitükdə də müşahidə etmək olar. Muzeydə saxlanılan bu maraqlı baş geyimi olan çutqu XIX əsrə aid nümunədir. Məxmər parçadan biçilmiş uzun düzbucaq formalı geyim nümunəsinin yanları bağ vasitəsilə birləşdirilərək boru şəklini alıb. Çutqudan qadınlar hörüklərini gizlətmək üçün istifadə edirdilər. Buna görə ona içitük də deyilir. İçitük torbanı xatırladır. Başı və ayağı açıq olur. Hörükləri içinə saldıqdan sonra başa keçirilir və arxa hissəsində olan iplər vasitəsilə boyunun ardında sıxılıb bağlanır. Çit astarla tərtib edilmiş baş geyiminin ətəyi bafta, purçum və qaragöz tikmə ilə bəzədilib. Alın hissəsi müxtəlif üsullarla bəzədilirdi. Bu bəzəklər çutquqabağı adlanırdı.

Qarabağ bölgəsinə aid daha iki baş örtüyü nümunələri diqqət çəkir. Onlardan biri Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan təsək-çəpçikdir. İki yarımdan (qulaqlıqdan) və kəllə hissəsindən ibarət olan təsək içəridən bir-birinə tikilir, sonra içəriyə çevrilir, tikişlər içəridə qalır. Təsək başa elə geyilirdi ki, həm başın arxasını, həm də qulaqların üst hissəsini örtsün. Başqa möhkəm durması üçün məmulatın sağ qulaqcığa ilgəkli qaytan (qatma) tikilir, çənənin altından keçirilir və sol qulaqcığa bərkidilmiş düyməyə bağlanırdı.

Muzeydə saxlanılan təsək nümunəsi əsası qırmız xaradan olan və çit parçanın üzərində maşın tikişi ilə dalğavari xətli ərlə haşiyə zolağı ilə tərtib edilən baş geyimi qaytanla tamamlanır.

Digər maraqlı baş örtüyü olan çənəbənd Gürcüstan Milli muzeyinin Qarabağ kolleksiyasına daxildir. Şuşada hazırlanan bu məmulat iki üçbucaq formasında olan hissələrin iki ucu bir birinə nazik zolaqlarla birləşdirilmiş formada təqdim olunub. Çox ehtimal ki, bu zolaqlar başa keçirilərək alın və çənə hissəsində saxlanılır, yan iki düzbucaq hissələr isə başın arxasında bağlarla bərkidilirdi.

Şəhər qadınları bayıra çıxarkən bütün baş geyimlərinin və üst geyimlərinin üzərinə çarşaba örtüyü bürünürdülər (Каракашлы К.Т., 1964). Yerli sakinlər onu “çarçov” da adlandırırlar, Azərbaycanın digər bölgələrində isə

"çarşab" və ya "çador" adlanır. Çarşab qadının bütün fiqurunu gizlədib, yalnız gözlərini açıb. Qeyd edək ki, Qarabağda çarşab yalnız aran ərazilərində yayılmışdı, dağlıq bölgələrdə kəndli qadınları isə praktiki olaraq bundan xəbərsiz idilər. Bəzi mənbələrdə dağlıq bölgələrdə çarşabın yaranması Pənah xanın hakimiyyəti dövrünə aid edilir (Ələkbərov Ə., 1960).

Nümunə olaraq Milli Azərbaycan Xalça Muzeyində saxlanılan ipək çarşabı göstərmək olar. Şuşa istehsalı olan bej rəngli çarşabın səhti boyu uzanan nəbati ornamentdən ibarət olan naxışlar məmulatın əsas tərtibat hissəsidir. Çarşabın kənarlarında bir neçə sıraya düzülmüş ensiz üfüqi zolaqlarla əhatə olunmuş tünd qəhvəyi rəngdə verilmiş haşiyənin daxilində dalğavari xəttin üzəri iri çiçəklərlə tərtib olunur.

Müqayisəli araşdırma nəticəsində məlum olub ki, Qarabağ tarixi-etnoqrafik zonasında yaşayan azərbaycanlıların kişi və qadın baş geyimləri ilə digər zonalardakı azərbaycanlıların baş geyimləri arasında təkcə istifadə olunan materiallarda deyil, həm də baş geyiminin forması, ornamenti, hazırlanma üsulları, sosial vəziyyəti və s. baxımından əhəmiyyətli oxşarlıqlar var. Eyni zamanda, Qarabağ azərbaycanlılarının baş geyimləri də bir sıra fərqləndirici xüsusiyyətlərə malik idi. Bunlara Qarabağda çadırın və üz örtüyünün (rubəndin) demək olar ki, tamamilə olmaması, müxtəlif baş geyimləri taxmağın fərqli üsulları, yaşmaq (çadra) bağlama tərzi və s.

Rubənd, gözlər üçün açıq işlənmiş krujevalı üz örtüyüdür. Bu, adətən gözlərin üstündən başlayan və demək olar ki, boyun nahiyəsinə qədər uzanan, çarpaz bükülmüş örgü ilə başın üstündə tutulan geniş ağ muslin parçası idi. Milli Azərbaycan Tarixi Muzeyində XX əsrin əvvəlinə aid olan Şuşa rubəndinin möhtəşəm nümunəsi saxlanılır. Tünd göy rəngli tirmədən kəsilmiş, güləbətin tikməli buta, stilizə olunmuş güllər və ömür ağacı naxışlarından ibarət frizvari zolaqlarla bəzədilmiş rübənd qızılı zəncirə ilə işlənmişdir.

**Nəticə** olaraq qeyd etmək olar ki, Qarabağın ənənəvi qadın baş örtükləri sadəcə geyim elementi deyil, bölgənin zəngin tarixini, xalqın estetik zövqünü və sosial strukturunu əks etdirən mühüm mədəni irsdir. Kəlağayıdan araqçına, qızıl alınlıqlardan tirmə şallara qədər hər bir detal Azərbaycan qadınının zərifliyini və ləyaqətini rəmzləşdirir.

Qarabağın baş örtükləri bu torpağın ruhu kimi rəngarəng, naxışları kimi mürəkkəb və zərifdir. Şuşanın kübar məclislərindən süzülüb gələn bu ənənə bu gün də milli qürur mənbəyimizdir. Bu örtüklər təkcə başı deyil, həm də əsrlər boyu formalaşmış mənəvi dəyərlərimizi qoruyan bir simvoldur. Onların

yaşadılması keçmişimizə olan hörmətin və gələcəyə olan bağlılığın təzahürüdür. Bu geyim mədəniyyətinin qorunub saxlanılması və öyrənilməsi milli kimliyimizin gələcək nəsillərə ötürülməsində əvəzsiz rol oynayır.

Təqdim etdiyimiz araşdırmada ilk dəfə olaraq XIX-XX əsrin əvvəllərində Şuşa və ətraf bölgələrdə geniş yayılmış araqçın, çutqu, kəlağayı və şal kimi geyim elementlərinin tipoloji, texnoloji və rəmzi xüsusiyyətləri ətraflı şəkildə öyrənilir. Etnoqrafik materiallara əsaslanan tədqiqat, bu örtüklərin sosial status və yaş göstəricisi kimi funksiyalarını və bədii bəzək üsullarını müəyyən edir.

Araşdırmadan əldə edilən mühüm qənaətlər ali məktəblərdə incəsənətin tarixi və mədəniyyətşünaslıq üzrə fənlərin tədrisinə tətbiq edilə bilər. Bundan başqa, muzey fəaliyyətində milli geyim kolleksiyaların atribusiyası, kataloqlaşdırılması və pasportlaşdırılmasında etibarlı mənbə qismində praktiki əhəmiyyətə malikdir. Məqalədə təsviri verilən naxış nümunələri ölkə geyim dizaynerləri və tətbiqi sənət ustalarına milli üslubda yeni nümunələrin yaradılması üçün gərəkli nəzəri mənbə ola bilər. Təqdim etdiyimiz araşdırma gələcəkdə aparılan tədqiqatlara milli geyimlərin semantikasına və sosial roluna dair geniş elmi təhlillərin aparılmasına zəmin yaradır.

## Ədəbiyyat siyahısı

1. Ələkbərov, Ə. (1960). *Azərbaycanın arxeologiyasına və etnoqrafiyasına dair tədqiqatlar*.Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının Nəşriyyatı
2. Sadıxova, S.Y. (2013). *XIX əsr Azərbaycan geyimləri*. Bakı: Şərq-Qərb
3. Каракашлы, К.Т. (1964) *Материальная культура азербайджанцев Северо-Восточных и Центральных зон Малого Кавказа (историко-этнографическое исследование).* Баку: Издательство Академии Наук Азербайджанской ССР
4. Кямалзаде, У.Э. (2024) *Азербайджанский женский платок в XIX-XX вв.: особенности бытования и репрезентация в изобразительном искусстве*. [Диссертация кандидата искусствоведения]. Санкт-Петербург.

**Нигяр Аббасова Ильгар гызы**

# ТРАДИЦИОННЫЕ ЖЕНСКИЕ ГОЛОВНЫЕ УБОРЫ КАРАБАХА

**Резюме:** Изучение традиционных женских головных уборов Карабаха актуально с точки зрения защиты материального и культурного

наследия от негативных последствий глобализации, а также вопроса передачи национального генетического кода азербайджанского народа будущим поколениям. Кроме того, изучение головных уборов необходимо для социально-антропологического анализа иерархии особенностей взаимоотношений, исторически сложившихся в азербайджанском обществе. Проблема сохранения культурного достояния и его популяризации актуализируется в условиях вытеснения национальной одежды глобальной модой и современными стилями одежды.

В статье впервые изучаются типологические, технологические и символические характеристики таких элементов женских головных уборов, как арагчин, чутгу, келагаи и шаль. Данные головные уборы были широко распространены в Шуше и прилегающих регионах Карабаха на рубеже XIX-XX веков. Исследование, основанное на этнографических материалах, рассматривает функции указанных головных уборов как индикатора социального статуса и возраста, а также выявляет технику их художественного оформления.

В предыдущих исследованиях изучение карабахской одежды, включая женские головные уборы, носило фрагментальный характер, в основном они рассматривались в контексте истории и археологии. Изучение их смысловых значений не становились отдельным объектом всестороннего изучения.

Основная цель данной статьи – выявить историко-культурное значение, художественно-эстетические особенности традиционных женских головных уборов и их место в азербайджанской культуре одежды на основе изучения богатого этнографического наследия Карабахского региона. Задача состояла в систематическом изучении традиционных форм одежды карабахских женщин (келагай, арагчин, чалма и др.), в демонстрации того, как эти головные уборы отражают эстетический вкус и национальные ценности азербайджанского народа. Кроме того, в статье женские головные уборы интерпретируются не только с точки зрения эстетической значимости, но представляются как средство передачи информации о возрасте, семейном положении и социальном статусе женщины.

Примененный в ходе исследования систематический подход к изучению женских головных уборов, семантический анализ и определение критериев классификации обогатили теоретическую базу данной области истории декоративно-прикладного искусства. Полученные выводы могут

быть использованы в преподавании предметов по истории и теории искусства в высших учебных заведениях. Кроме того, полученные теоретические результаты имеют практическое значение как надежный источник для атрибуции и каталогизации национальных коллекций одежды в музейной деятельности.

**Ключевые слова**: Карабах, Шуша, национальная одежда, головной убор, чутгу, арагчин, келагай, этнография, материальная культура, гулабатин.

**Nigar Abbasova Ilgar gizi**

## TRADITIONAL WOMEN'S HEADWEAR OF GARABAGH

**Summary**: The scientific study of traditional women's headwear of Garabagh is relevant in terms of protecting our material and cultural heritage from the unification tendencies of globalization and transmitting the national genetic code of our people to future generations. In addition, the study of headwear is necessary for the social and anthropological analysis of the internal relations historically taking place in Azerbaijani society. All this is very relevant in terms of not forgetting our historical past and promoting it in the world at a time when global fashion and modern clothing styles are crowding out national clothing.

The article studies for the first time the typological, technological and symbolic characteristics of clothing elements such as aragchin, chutgu, kelaghayi and shawl, which were widespread in Shusha and the surrounding regions at the turn of the 19th-20th centuries. The research, based on ethnographic materials, examines the functions of these headwear as an indicator of social status and age, as well as the methods of artistic decoration.

In previous studies, the study of Garabagh clothing, including women's headscarves, was superficial, mainly studied in the context of history and archeology, and the semantic meaning they carry was not studied in a comprehensive way.

The main purpose of this article is to shed light on the historical-cultural significance, artistic-aesthetic features of traditional women's headscarves and their special place in Azerbaijani clothing culture by studying the rich ethnographic heritage of the Garabagh region. The aim is to systematically present the traditional clothing forms of Garabagh women (kelaghayi, aragchin,

chalma, etc.), to show how these covers reflect the aesthetic taste and national values of the Azerbaijani people, and to explain that headscarves are not just a decoration, but also a means of providing information about the age, marital status and social status of a woman.

The systematic approach, semantic analysis and development of classification criteria applied to the study of women's headscarves during the research have enriched the theoretical basis of art history in this field. The obtained important conclusions can be applied to the teaching of subjects on the history and theory of art in higher education institutions. In addition, the obtained theoretical results have practical significance as a reliable source in the attribution and cataloguing of national clothing collections in museum activities.

**Key words**: Garabagh, Shusha, national clothing, headwear, chutgu, aragchin, kelaghayi, ethnography, material culture, gulabatin.

**Məqalənin redaksiyaya daxilolma tarixi: 30.04.2026**
**Məqalənin çapa qəbul olma tarixi: 10.06.2026**